# ƏMR
# № 103/1/2021

Bakı şəhəri 19 aprel 2021-ci il

Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfransın keçirilməsi haqqında

UNEC-də magistratura və doktorantura səviyyəsində təhsil alan gənclərin elmi tədqiqat nəticələrinin paylaşılması, həmçinin başqa ölkələrdən olan magistrant və doktorantlarla qarşılıqlı fikir və təcrübə mübadiləsinin təmin edilməsi məqsədilə

əmr edirəm:

1. UNEC və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 4-7 iyun 2021-ci il tarixlərində Gəncə şəhərində III "İqtisadiyyat və idarəetmə" sahəsində magistr və doktorantların beynəlxalq elmi konfransı keçirilsin.
2. Konfrans Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Nizami Gəncəvi və Dayanıqlı İnkişaf" mövzusuna həsr olunsun.
3. Beynəlxalq elmi konfransın keçirilməsi ilə bağlı Tədbirlər Planı təsdiq edilsin (Əlavə 1).
4. Konfransın Elm və Təşkilat Komitələrinin, konfrans Katibliyinin üzvlərinin tərkibi təsdiq edilsin (Əlavə 2).
5. Bu əmrin 3-cü bəndi ilə təsdiq olunmuş Tədbirlər Planında nəzərdə tutulan məsul struktur bölmələr həmin tədbirlərin həyata keçirilməsini təmin etsinlər.
6. Beynəlxalq magistratura və doktorantura mərkəzinin rəhbəri (dos.Fariz Əhmədov) konfransın keçirilməsi ilə bağlı lazımi təşkilati və əlaqələndirmə məsələlərini həll etsin.
7. İctimaiyyətlə əlaqələr şöbəsi (E.Ömərova) bu əmrin UNEC-in internet səhifəsində yerləşdirilməsini və konfrans haqqında məlumatların respublika KİV-lərində işıqlandırılmasını təmin etsin.
8. Konfransın sədri (dos.Fariz Əhmədov) elmi tədbirin nəticələri barədə hesabatı (3 gün ərzində) elm və innovasiyalar üzrə prorektor prof. S.Yaqubova təqdim etsin.
9. Əmrin icrasına nəzarət elm və innovasiyalar üzrə prorektor prof. Sakit Yaqubova həvalə olunsun.

Əsas : Beynəlxalq magistratura və doktorantura mərkəzinin rəhbəri dos. F.Əhmədovun təqdimatı və mənim göstərişim.

Rektor prof. Ədalət Muradov

